# Qəhrəmanlıq salnaməsi yazan ordu



**"Silahlı Qüvvələrin qəhrəmanlığının nəticəsində 44 günlük Vətən müharibəsində əldə edilən Şanlı Qələbə Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılıb. Bu qələbə Zəfər ili kimi qeyd olunur. Bu zəfərin memarı Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, icraçısı isə qəhrəman Azərbaycan əsgəridir".**

Bu sözləri "Azərbaycan" qəzetinə hərbi ekspert Ədalət Verdiyev deyib. O qeyd edib ki, məhz Silahlı Qüvvələrimizin möhtəşəm qələbəsi sayəsində 30 illik işğal siyasəti yürüdən Ermənistan diz üstə çökdürülüb və bu zəfər bizi onilliklər boyu həsrətini çəkdiyimiz doğma yurd yerlərimizə qovuşdurub: "Çox çətin iqlim şəraitində və mürəkkəb relyefə malik ərazilərdə düşmənin 30 illik müdafiə sədlərini bir neçə saat ərzində darmadağın edən Azərbaycan Ordusu cəmi 44 günə tarix boyu unutmayacağımız böyük qəhrəmanlıq nümunələri göstərdi. Bir çox məntəqənin azad olunmasında hərbçilərimizin göstərdiyi şücaət bu gün bir çox ölkənin hərbi elmi araşdırma mərkəzləri tərəfindən öyrənilir. Xarici mütəxəssislər ordumuzun Hadrutda, Şuşada, Cəbrayılda, Füzulidə göstərdiyi yüksək döyüş potensialının sirrini bu gün də tam açа bilmirlər".

Ekspert vurğulayıb ki, Vətən müharibəsindən sonrakı sərhəd toqquşmalarında və antiterror tədbirlərində də Azərbaycan beşinci nəsil müharibəni apara bilən silahlı qüvvələrə malik olduğunu bir daha nümayiş etdirib. Vətən müharibəsində möhtəşəm qələbə çalan Silahlı Qüvvələrimizdə türk ordu modelinə keçid kifayət qədər sürətlə davam edir. Azərbaycan müharibədən sonrakı dövrdə də ordu quruculuğu və silahlı qüvvələrin təminat və təchizatında çox mühüm addımlar atır. Bu gün Azərbaycan Ordusu Türkiyədə istehsal olunan istənilən hərbi vasitələri əldə etmək imkanı qazanıb. Digər tərəfdən hərbi-texniki sahədə həm Türk Dövlətləri Təşkilatına üzv, həm də digər müttəfiq və dost ölkələrlə əməkdaşlıq uğurla davam etdirilir.

Ordumuzun beynəxalq reytinqi İkinci Qarabağ savaşından sonra hər il daha da yaxşılaşır. Ermənistan ilə güc balansında kifayət qədər irəlidə olan Azərbaycan dünyanın əlliliyə daxil olan güclü qalib ordusuna malikdir. Azərbaycan Silahlı Qüvvələrinin təminat və təchizatında Müdafiə Sənayesi Nazirliyinin də böyük rolu olduğunu qeyd edən Ə.Verdiyev əlavə edib ki, hazırda ölkəmizdə beşinci nəsil tank qırıcısı üçün ehtiyat hissələri istehsal olunur.

"Azərbaycan Türkiyə və digər müttəfiqlərlə birgə müəssisələrin yaradılması, hərbi-texniki sahədə əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlu addımlar atır. Bu il Bakıda keçiriləcək ADEX sərgisində Azərbaycan və Türkiyənin birgə istehsalı olan bəzi məhsulları da görəcəyik. Yaxın üç il ərzində isə bu məhsullar ixrac olunacaq", - deyə o bildirib. Ekspertin sözlərinə görə, Ali Baş Komandan İlham Əliyev üçün ordunun təminatı, ən müasir silah və texnikalarla təchizatı daim prioritet olaraq qalır. Azərbaycan regional gücdən qlobal gücə çevrilmək istiqamətində ciddi addımlar atır. Silahlı Qüvvələrin döyüş potensialının artırılması üçün dövlət büdcəsindən ayırmalar daim artırılır. Zəruri olan bütün vasitələr, texnikaların ən yaxşı nümunələri Azərbaycan əsgərinin istifadəsinə verilir. Bu, gələcəkdə Azərbaycana qarşı olan revanşist qüvvələrin baş qaldırmaması üçün çox vacib məsələlərdən biridir.

Azərbaycan Ordusunun şəxsi heyəti Ali Baş Komandanın istənilən əmrini, istənilən anda yerinə yetirməyə tam hazırdır.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 26 iyun, № 131.- S.8.